

VAQİF YUSİFLİ,
*filologiya elmləri doktoru*

# ŞƏKİ ƏDƏBİ MÜHİTİNİN TƏDQİQİ

*(təhlil)*

Şəki Azərbaycanın ən qədim, həm təbiəti, həm zəngin unikal mədəniyyəti, həm tarixi abidələri, həm yetirdiyi sənət adamları, həm də bənzərsiz folklor inciləri ilə məşhuri-cahandır. Şəki yumoru, Şəki lətifələri bu torpaqda yaşayan insanların xasiyyətinə, xarakterinə, hətta davranış normalarına uyğundu.

Şəki adı çəkiləndə Mirzə Fətəli Axundzadə, Rəşid bəy Əfəndiyev, Molla Cümə, İsmayıl bəy Nakam, Salman Mümtaz, Sabit Rəhman, şair Bəxtiyar Vahabzadə, İsmayıl Osmanlı, Lütfəli Abdullayev, Əbdüləzəl Dəmirçizadə, Yaşar Qarayev, Aydın Məmmədov, Arif Abdullazadə, Hikmət Ziya kimi sənət fədailəri yada düşür və onlar haqq dünyasına qovuşsalar da, adları mədəniyyət tariximizdə əbədi yaşayır.

Filologiya elmləri namizədi Kamil Adışirinov "XX əsr Şəki ədəbi-mədəni mühiti (1900-2000-ci illər) adlı bir monoqrafiya nəşr etdirib və bir əsr ərzində Şəkinin ədəbi-mədəni mənzərəsini yaradıb. 486 səhifədən ibarət olan bu kitab sözün əsil mənasında yeni bir elm sahəsinin-şəkişünaslığın yaranmasından xəbər verir. Xatırladaq ki, neçə il əvvəl görkəmli tənqidçi Yaşar Qarayevin redaktorluğu və qiymətli ön sözü ilə "Şəki folkloru" adlı sanballı toplu da nəşr olunmuşdu.

Monoqrafiya üç fəsildən ibarətdir və bu fəsillərin hər biri haqqında təfsilatı ilə, lap elə yığcam şəkildə məlumat vermək fikrində deyilik. Bu ənənəvi məlumatfüruşluqdan imtina edib monoqrafiyada nəzərə çarpan bəzi məqamlara diqqət yetirmək istəyirik.

BİRİNCİ MƏQAM: Bütün əsr boyu Şəkidə ədəbi-mədəni mühit öz canlı, dinamik və sürəkli inkişafı ilə xarakterizə oluna bilər. Bu bölgədə aşıq sənəti, ədəbi həyat, teatr yanaşı addımlamış və proses heç bir vaxt səngiməmişdir. Maneələr və qadağalar da Şəkinin mədəni simasına xələl gətirməmişdir. Məmləkətin paytaxtı Bakıda, Naxçıvanda, Qarabağda, Gəncədə, Qubada, Şirvanda, Qazaxda olduğu kimi hər hansı ədəbi-mədəni hadisələr Şəkidə də cərəyan etmiş və beləliklə, Şəki də Azərbaycan mədəniyyətinə öz töhfələrini bəxş etmişdir. Məsələn, 1923-cü ildə bir qrup yazıçı Bakıda "Türk ədib və şairlər ittifaqı" adında bir dərnək yaratmışdılar, iki ildən sonra Azərbaycanın bir sıra şəhərlərində "Qızıl qələmlər İttifaqı" fəaliyyətə başladı və Naxçıvanda, Gəncədə, Şəkidə də "Qızıl qələmlər"in şöbələri açıldı. Gələcəyin böyük dramaturqu Sabit Rəhman, sonralar məşhur dilçi kimi tanınan professor Əbdüləzəl Dəmirçizadə, Azərbaycanda geokimya elminin təşkilatçısı Heydər Əfəndiyev Şəkidəki "Qızıl qələmlər"in ilk üzvləri olmuşlar. İyirminci-otuzuncu illərdə Azərbaycanda ilk rəsmi dövlət teatrların yaranması ilə əlamətdar idi. 1932-ci ildə Şəkidə də belə bir teat-

nın yaranması zərurətə çevrildi. Bunu musiqi və incəsənətin digər sahələri haqqında da söyləmək olar.

İKİNCİ MƏQAM: Kitabda təkcə Şəkinin deyil, ümumən Azərbaycanın bir sıra unudulmuş, haqqında az danışılan, ya da tamam unudulan ziyalıları ilk dəfə olaraq geniş işıqlandırılır. Bu unudulmuşların içində elələri var ki, onlar maarif, mədəniyyət sahəsində ilkin olaraq seçilmiş, fərqlənmiş, amma sonra yetirdiyi tələbələr, yeni gələn istedadlar irəli çıxmış, beləliklə, "baniyi -karlar" nisbətən arxa plana keçmişlər. Kimdir onlar?

XX əsrin əvvəllərində Şəkidə ədəbi mühitin formalaşmasında mühüm rol oynamış, əsərlərini "Qazi" təxəllüsü ilə qələmə alan Hacıbaba Mehdizadə. Yenə həmin illərdə maarifçi aydınlardan biri - Məşədi Mehdi Sadıqov da Şəkinin mədəni həyatında, xüsusilə teatrda qızğın fəaliyyəti ilə seçilmişdir. Bəs Müstafa Əlibəyov necə? Kamil Adışirinov onu tanınmış ictimai-siyasi xadim, ədəbiyyat yaradıcısı və təbliğatçısı kimi təqdim edir. O, bir neçə pyesi ilə Azərbaycan dramaturgiyasında öz sözünü deyə bildi. "Məhkəmələr qarşısında tökülən qanlı yaşlarımız" və "Cəllad mülkədarın qurbanı" pyesləri sonralar öz həqiqi qiymətini almış, tanınmış tədqiqatçı Ədalət Tahirzadə isə onun şəxsiyyəti və yaradıcılığı ilə bağlı ayrıca bir məqalə yazmışdır. Abdulla bəy Əfəndizadə də nisbətən kölgədə qalmış, haqqında az danışılan, lakin xidmətləri böyük ziyalılardan olmuşdur. O, Azərbaycan maarifinin korifeylərindən olan Rəşid bəy Əfəndizadənin qardaşı idi. Bu, o Abdulla bəydir ki, Faiq Nemanzadə "Xatirələr" toplusunda ondan hörmətlə söz açır. Bu, o Abdulla bəydir ki, Şəkinin teatr aləmində xüsusi rol oynamışdır. O, həm də mahir tərcüməçi idi, həm də "acı həqiqətlər" şairi idi. XX əsrin əvvəllərində və Cümhuriyyət illərində Şəkinin ədəbi-mədəni həyatında Rəcəb Əfəndiyevin də xidmətləri unudulmur. O, ustad Firudin bəy Köçərlinin yetirməsi idi, ədəbiyyata böyük maraq göstərirdi, Puşkinin, Lermontovun və Krılovun əsərlərini azərbaycancaya tərcümə edirdi.




1920-1940-cı illərdə Şəkidə ədəbi-mədəni mühitin canlanmasında Zahid Zeynallının, Sadıq Babayevin, Hüseyn Kişlinin də rolu olmuşdur və Kamil Adışirinovun onların həyat və yaradıcılığı ilə bağlı ilk dəfə söz deməsi təqdirəlayiqdir. Oxucular üçün maraqlı olacaq ki, Adışirinovun monoqrafiyasında 1950-1980-ci illər Şəkisində ədəbi-mədəni fəaliyyəti ilə diqqəti cəlb edən, lakin illər keçdikcə az qala unudulan qələm sahibləri, söz sərrafları olmuşdur - Camal Abdullayev, Muxtar və Valeh Qiyasi qardaşları, İsa İsayev, Yaqub Mahir, Oruc Qarayev, Cabir Cəlilov, Məmmədəli Əliyev və başqaları. Müəllif bir faktı xüsusilə nəzərə çarpdırır: Şəki ədəbi-mədəni mühiti yalnız özünə qapanıb qalmamışdır. "Bu illərdə "Nuxa fəhləsi" qəzeti redaksiyasının nəzdində fəaliyyət göstərən ədəbiyyat dərnəyinin sıralarında vaxtilə yaradıcılıq yolu keçmiş Sabit Rəhman, Bəxtiyar Vahabzadə, Əhməd Rəhimov və başqa görkəmli yazıçılar maraqlanır, tez-tez Şəkiyə gələrək ədəbiyyatsevərlərin və dərnək üzvlərinin qonağı olurdular". Belə misalların sayı çoxdur və Kamil Adışirinov bu faktları tez-tez xatırladır. Bu sətirlərin müəllifi də vaxtilə, 80-ci illərin əvvəllərində Şəki teatrının bir çox tamaşalarına baxmış, görkəmli rejissor Hüseynağa Atakişiyevin o dövrdə Şəki teatrının Azərbaycan teatrları içərisində ön sıralardan birinə çıxardığının şahidi olmuşdu.

Kamil Adışirinovun monoqrafiyasında son dərəcə maraqlı faktlar, məlumatlar diqqəti cəlb edir, bu faktlar və məlumatlar elmi həqiqətin ifadəsinə çevrilirlər. Xüsusilə "Şəki fəhləsi" qəzeti "Səbuhi" ədəbi məclisinin əsas tribunası kimi və qəzetin ideya-siyasi və ədəbi-mədəni məzmunu ("1921-1991-ci illər" və "Müstəqillik illərində Şəkidə ədəbi proses və mədəni inkişaf ("1991-2000-ci illər")" fəsilləri ağır tədqiqatçı əməyinin bəhrəsi kimi nəzərə çarpır. Hiss olunur ki, Kamil Adışirinov Şəkinin ədəbi-mədəni həyatını az qala günbəgün,





aybaay, ilbəil izləmiş, heç bir faktı, xidməti olan heç bir şəxsi və heç bir hadisəni nəzərdən qaçırmamışdır. Doğrudan da "Nuxa fəhləsi" qəzeti və "Səbuhi" ədəbi məclisi Şəkinin mədəni simasının göstəricisi olmuşdur. Məsələn, Şəkidə Məhyəddin Abbasovu indi hörmətlə xatırlayırlar. Kim idi o? Monoqrafiyada oxuyuruq: "Məhyəddin Abbasovun "Şəki fəhləsi" qəzetinə rəhbərlik etdiyi illərdə qəzet cəmiyyətə yaradıcı insanların açıq baxışını ifadə edən yazıların verilməsi və xalqa çatdırılması ilə bağlı əsil tribunaya çevrilmişdir. "Məhyəddin Abbasov yüksək vətənpərvərlik nümayiş etdirərək Xalq şairimiz Bəxtiyar Vahabzadənin "Gülüstan" poemasını qəzetin səhifələrinə çıxarmışdı. Qorxmaz jurnalistin bu hərəkəti həm Bəxtiyar Vahabzadəni, həm də özünü ağır təqibə məruz qoymuşdu".

Yazıçı Lütfəli Həsənov İxtisasca həkim idi, amma bir ədəbiyyat adamı kimi də o dövrdə sevilirdi, məhsuldar dramaturq idi. Ənvər Mirzəoğlu - lirik və satirik şeirlər müəllifi. Mirpaşa Hümmətov - o da gözəl şair idi. Bu sırada Yaqub Mahir, Məmməd Çələbiyev, Ələşrəf Məmmədov, Tofik Qafarov, Şahid Məmmədkərimov, Telman Həmidli, Minayə Piriyeva, Surağat Qurbani, Sirac Həbibullayev, Şərif İdrisov və başqa şəxslər Şəki ədəbi mühitinin canlanmasında əməyini əsirgəməmişlər. Əlbəttə, bunların bir çoxunun istedadı yalnız "region ədəbiyyatı" səviyyəsində idi, onların Azərbaycan ədəbi mühitində parlamamaları təbii idi. Ancaq onlar olmasaydı, Şəkidə ədəbi mühit formalaşmazdı. Kamil Adışirinov isə onların hər birinin yaradıcılığını sevə-sevə tədqiq edir.

Monoqrafiyanın III fəsli müstəqillik illərində Şəkidə ədəbi proses və mədəni inkişafa həsr olunmuşdur. Müəllifin bu prosesə bələdliyi daha bariz nəzərə çarpır. Çünki onun bir alim və publisist kimi qızğın fəaliyyəti də məhz bu illərə təsadüf edir. Kamil Adışirinov "İsmayıl bəy. Nakam - həyat və yaradıcılığı", "Qədim türk yurdu Oxud", "Şəkidə məhəllə adları, soylar və ləqəblər" kitablarının və onlarla elmi, publisistik məqalələrin müəllifidir. Ona görə də müstəqillik illərinin ədəbi-mədəni həyatını daha yaxşı bilir, çünki həmin illərin olayları içərisində olmuşdur.

Şəkidə hazırda Azərbaycan Yazıçılar birliyinin filialı fəaliyyət göstərir. Bu filialın rəhbəri istedadlı şair Vaqif Aslandır.

***Bir ocaq qaladı o tayda bacı,***
***Bir ocaq qaladı bu tayda qardaş.***
***Diriykən ayrılıq ölümdən acı,***
***Bizim başımıza tale salıb daş,***
***Tüstümüz görünür Arazın üstə.***

Bu misralar Vaqif Aslanındır və Kamil Adışirinov onun yaradıcılığının əsas cövhərini ortaya çıxara bilir.

***Onu necə vəsf eləyim -***
***Bu gözəllik qarşısında.***
***Qələm də lal, ilham da lal,***
***Yaradanın qüdrətiylə,***
***Dağ döşünə nəqş olunan,***
***Gözəl bir tablodu Marxal.***

Bu isə təkcə Şəkidə deyil, ondan kənarda da istedadlı bir şair kimi tanınan Mais Səlimin misralarıdır. Həmin fəsildə Kamil Adışirinov Yusif Şükürlünün, Əhməd Zəyzidlinin, Həillah Kamilin, Ələsgər Salamovun yaradıcılığından da söz açır. Bunlar Şəki mühitində tanınmış simalardır. Amma çox təəssüf ki, Kamil Adışirinov nəinki Şəkidə, Azərbaycan ədəbi mühitində istedadlı bir şair və tərcüməçi kimi tanınan Namizəd Xalidoğlunun və daha başqa bir şairin - Ramiz Orsərin yaradıcılığından söz açmağı unutmuşdur. Namizəd Xalidoğlu indinin özündə bizim müasir poeziyada seçilən, fərqlənən şairlərdəndir. Onun "Kövşən ətri gəlir şeirlərimdən" misrası məşhurdur və Şəkidə, doğulduğu kənddə yaşaya-yaşaya əyalət çərçivəsini qıraraq müasir poeziyada tanınması heç də az iş deyil.

***Boyu balacadı sətrinə görə,***
***Bununçun kiməsə bir işi düşməz.***
***Mənim şeirlərim ətrinə görə***
***Heç kəsin şeiriylə dəyişik düşməz,***
***Kövşən ətri gəlir şeirlərimdən.***

***Kəsir qabağımı küləklər bəzən,***
***Saçımdan yapışır, dizimə döyür.***
***İş elə gətirib sevdiyim gözəl,***
***Şeirimi oxuyub gözünü döyür,***
***Kövşən ətri gəlir şeirlərimdən.***

Əlbəttə, Kamil Adışirinovun monoqrafiyasında qüsurlar da ola bilər (kiminsə adı unudulub, hansı faktsa yaddan çıxıb), amma bu əsər doğrudan da bir əsr Şəki ədəbi-mədəni mühiti haqqında dolğun təsəvvür yaradır.